

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 143 (23.054)

*1 avqust 2018-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 31 iyul tarixli Sərəncamı ilə dövlət qulluğunda səmərəli fəaliyyətlərinə görə bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikasında çalışan dövlət qulluqçuları da vardır.

**Əliyev Əkbər Əli oğlu**
**Nağıyev Azər İslam oğlu**
**Nəbiyeva Səkinə Fərrux qızı**

"Tərəqqi" medalı ilə,

**Əliyev İmran Vəli oğlu**
**Əliyev Müşfiq Həmid oğlu**
**Əsədov Vüsal Əsədulla oğlu**
**Qədimov Əli Tofiq oğlu**
**Qəhrəmanov İdris Məmməd oğlu**
**Qəhrəmanov Ramin Zeynalabdın oğlu**
**Məmmədov Muşviq Əhməd oğlu**
**Orucov Rəşadət Mühiddin oğlu**
**Rüstəmov Emin Keykavus oğlu**

"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilmişlər.

## Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidmətinin yaradılması haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 6-cı bəndini rəhbər tutaraq avtomobil nəqliyyatı sahəsində idarəetməni təkmilləşdirmək məqsədi ilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının Nəqliyyat Nazirliyinin əsasında Naxçıvan Muxtar Respublikasının Dövlət Nəqliyyat Xidməti yaradılsın.

2. "Naxçıvan Muxtar Respublikasının Dövlət Nəqliyyat Xidməti haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

3. "Naxçıvan Muxtar Respublikasının Dövlət Nəqliyyat Xidmətinin strukturu" təsdiq edilsin (əlavə olunur).

4. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 31 iyul 2018-ci il*

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 iyul tarixli Fərmanı ilə təsdiq edilmişdir***

## Naxçıvan Muxtar Respublikasının Dövlət Nəqliyyat Xidməti haqqında

## ƏSASNAMƏ

### 1. Ümumi müddəalar

1.1. Naxçıvan Muxtar Respublikasının Dövlət Nəqliyyat Xidməti (bundan sonra – Xidmət) avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarına dair qayda və tələblərə riayət edilməsini tənzimləyən və avtomobil nəqliyyatı sahəsində dövlət siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

1.2. Xidmət öz fəaliyyətində Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarını və qanunlarını, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını və bu Əsasnaməni rəhbər tutur.

1.3. Xidmət öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən mərkəzi və yerli icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları və muxtar respublikada qeydiyyatdan keçən qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Xidmətin müstəqil balansı, sərəncamında olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürü, müvafiq ştampı və blankı vardır.

1.5. Xidmətin saxlanma xərcləri və fəaliyyəti dövlət büdcəsi və qanunvericilikdə nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

1.6. Xidmət Naxçıvan şəhərində yerləşir.

### 2. Xidmətin fəaliyyət istiqamətləri

2.1. Xidmətin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. muxtar respublikada avtomobil nəqliyyatı sahəsində dövlət siyasətinin işlənib hazırlanmasında və bu sahədə normativ hüquqi tənzimləmənin həyata keçirilməsində iştirak edir;

2.1.2. avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarının inkişafı ilə bağlı tədbirlər görür;

2.1.3. sərnişin və yük daşımalarını yerinə yetirən avtomobil nəqliyyatı subyektləri tərəfindən beynəlxalq norma və qaydalara, habelə müvafiq qanunvericiliyə riayət olunmasına nəzarət edir;

2.1.4. avtomobil nəqliyyatı ilə müntəzəm sərnişin daşımalarının təşkilini və bu sahədə dövlət sifarişinin formalaşdırılmasını təmin edir;

2.1.5. avtomobil nəqliyyatı ilə daşımaların vahid norma və qaydalar əsasında təhlükəsiz yerinə yetirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görür;

2.1.6. qanunvericilikdə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

### 3. Xidmətin vəzifələri

3.1. Xidmət bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

3.1.1. avtomobil nəqliyyatı sahəsində dövlət siyasətinin və tənzimlənməsinin işlənib hazırlanmasında aidiyyəti üzrə təkliflər vermək, bu sahədə nəzərdə tutulan tədbirləri icra etmək;

3.1.2. avtomobil nəqliyyatı sahəsində proqramların icrasını təmin etmək;

3.1.3. avtomobil nəqliyyatının subyektləri tərəfindən sərnişin və yük daşımalarına dair qayda və tələblərə riayət olunmasına nəzarət etmək;

3.1.4. avtomobil nəqliyyatı ilə müntəzəm sərnişin daşımaları üzrə marşrut şəbəkəsini, marşrutların sxemini, həmin marşrutlarda istifadə olunacaq avtonəqliyyat vasitələrinin hərəkət cədvəlini, növünü və onlara dair tələbləri müəyyən etmək;

3.1.5. avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə sərnişin daşımalarına daşıyıcıları cəlb etmək;

3.1.6. avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını yerinə yetirən avtonəqliyyat vasitələrinin qanunvericiliklə müəyyən edilmiş qaydada reysqabağı texniki müayinəsini, sürücülərin reysqabağı tibbi müayinəsini, o cümlədən rübdə bir dəfə həmin avtonəqliyyat vasitələrinin texniki yoxlanılmasını təşkil etmək və bu sahədə nəzarəti həyata keçirmək;

3.1.7. səlahiyyətləri daxilində qiymət və tarif siyasətinin formalaşmasında və həyata keçirilməsində iştirak etmək;

3.1.8. avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən subyektlər tərəfindən avtomobil nəqliyyatı ilə sərnişin və yük daşınmasına dair qaydalarına əməl olunmasına, qanunvericilikdə nəzərdə tutulmuş hallarda sərnişinlərin icbari sığortalanmasına, habelə mövcud tariflərə uyğun gediş haqlarının tətbiqi qaydalarına riayət olunmasına nəzarət etmək;

3.1.9. qanunvericiliklə müəyyən edilmiş qaydada taksi minik avtomobilləri ilə sərnişin daşınması qaydalarına əməl olunmasına nəzarət etmək;

3.1.10. müəyyən olunmuş qaydada avtobus və taksi minik avtomobili dayanacaqlarının, həmçinin avtovağzalların pasportlaşdırılmasını həyata keçirmək və avtovağzalların göstərdikləri xidmətlərin səviyyəsinin onlara verilmiş pasportda müəyyən olunmuş kateqoriyalara uyğunluğunu təmin etmək;

3.1.11. avtomobil nəqliyyatı sahəsində normativ hüquqi aktların, texniki norma və qaydaların tələbləri pozulduğu hallarda qanunvericilikdə nəzərdə tutulmuş tədbirlər görmək;

3.1.12. avtomobil nəqliyyatı infrastrukturu obyektlərinin, o cümlədən avtovağzalların, dayanacaq məntəqələrinin, avtomobil duracaqlarının, terminalların və digər qurğuların, habelə avtonəqliyyat vasitələrinə texniki xidmət göstərən texniki təmir stansiyalarının (sahələrinin) yerləşdirilməsinə rəy bildirmək;

3.1.13. müəyyən olunmuş qaydada avtomobil nəqliyyatı sahəsində ətraf mühitin qorunmasına dair təkliflər vermək;

3.1.14. Xidmətin fəaliyyətinin təşkili ilə bağlı ayrılan büdcə vəsaitindən və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.15. müvafiq sahəyə daxil olan müəssisələr tərəfindən dövlət zəmanəti ilə alınmış kreditlərin məqsədyönlü istifadəsini və onların vaxtında qaytarılmasını təmin etmək;

3.1.16. Xidmətin sərəncamındakı dövlət əmlakını və maliyyə vəsaitlərini qanunvericilikdə müəyyən olunmuş qaydada idarə etmək;

3.1.17. Xidmətin fəaliyyəti ilə bağlı dövlət sirri təşkil edən məlumatların və digər məxfi informasiyanın qorunub saxlanmasını təmin etmək;

3.1.18. Xidmətin fəaliyyəti ilə bağlı daxil olan ərizə və şikayətlərə baxmaq və qanunvericilikdə müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.19. Xidmətin fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

### 4. Xidmətin hüquqları

4.1. Xidmət öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

4.1.1. Naxçıvan Muxtar Respublikasında avtomobil nəqliyyatı ilə yük və sərnişin daşımaları sahəsində dövlət siyasətinin formalaşdırılmasında və həyata keçirilməsində iştirak etmək;

4.1.2. vəzifə və funksiyalarını həyata keçirmək üçün dövlət və yerli özünüidarəetmə orqanlarından, təsərrüfat subyektlərinə, vəzifəli, eləcə də fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan həmin məlumatları (sənədləri) almaq;

4.1.3. fəaliyyət istiqamətlərinə uyğun olaraq rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, təkliflər vermək;

4.1.4. öz səlahiyyətinə aid məsələlərlə əlaqədar qanunvericilikdə müəyyən edilmiş qaydada məhkəmələrə iddialarla (ərizələrlə) müraciət etmək;

4.1.5. qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada təhlükəli və iriqabaritli ağır yüklərin Naxçıvan Muxtar Respublikasının ərazisindən daşınmasına icazə vermək və ya icazə verilməsindən imtina etmək;

4.1.6. Xidmətin fəaliyyət istiqamətləri üzrə mütəxəssis hazırlığını və ya ixtisaslarının artırılması işini təşkil etmək;

4.1.7. fəaliyyəti ilə əlaqədar konfranslar, seminarlar və digər tədbirlər keçirmək və bu tədbirlərdə iştirak etmək;

4.1.8. səlahiyyətinə aid məsələlər üzrə komissiyalar, işçi qrupları yaratmaq;

4.1.9. qanunvericilikdə müəyyən olunmuş qaydada internet saytı yaratmaq;

4.1.10. Xidmətin fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericilikdə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

### 5. Xidmətin fəaliyyətinin təşkili

5.1. Xidmətə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən rəis rəhbərlik edir. Rəis Xidmətə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.2. Xidmət rəisinin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad olunan müavini vardır. Xidmət rəisinin müavini Xidmətin rəisi tərəfindən ona həvalə edilmiş vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyır.

5.3. Xidmətin rəisi:

5.3.1. Xidmətin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.3.2. müavini və digər rəhbər şəxslər arasında vəzifə bölgüsü aparır, onların məsuliyyət dairəsini və səlahiyyətlərini müəyyən edir;

5.3.3. müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində Xidmətin ştat cədvəlini və ayrılmış büdcə təxsisatı daxilində xərclər smetasını təsdiq edir;

5.3.4. Xidmətin işçilərini qanunvericiliyə müvafiq olaraq vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbeh tədbirlərini tətbiq edir;

5.3.5. Xidmətin aparatının fəaliyyətinə dair əmr, sərəncam və göstərişlər verir, normativ hüquqi aktların icrasını təşkil edir və nəzarəti həyata keçirir;

5.3.6. Xidmətin fəaliyyətinə dair məlumat və hesabatlar hazırlayıb aidiyyəti üzrə təqdim edir;

5.3.7. Xidməti bütün dövlət orqanları, yerli özünüidarəetmə orqanları, habelə hüquqi və fiziki şəxslərlə münasibətlərdə və məhkəmələrdə etibarnaməsiz təmsil edir;

5.3.8. qanunvericiliyə uyğun olaraq digər səlahiyyətləri həyata keçirir.

5.4. Xidmətdə Rəisdən (kollegiyanın sədri), onun müavinindən və Xidmətin rəhbər işçilərindən ibarət kollegiya yaradılır. Xidmətin kollegiyasının tərkibinə həmçinin mütəxəssislər də daxil edilə bilər.

5.5. Xidmətin kollegiyasının üzvlərinin sayı və tərkibi Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

5.6. Xidmətin kollegiyası öz iclaslarında Xidmətin fəaliyyəti ilə bağlı məsələləri müzakirə edir və müvafiq qərarlar qəbul edir.

5.7. Xidmətin kollegiyasının iclasları onun üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Xidmətin kollegiyasının qərarları onun üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Xidmətin kollegiyasının qərarı qəbul edilərkən səslər bərabər olarsa, kollegiyanın sədrinin səsi həlledici hesab edilir.

5.8. Xidmətin kollegiyasının qərarları protokolla rəsmiləşdirilir və Xidmətin rəisi tərəfindən təsdiq edilir.

5.9. Xidmətin kollegiyasının üzvləri arasında fikir ayrılığı yarandığı hallarda Xidmətin rəisi bu barədə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat verərək, öz qərarını həyata keçirir. Xidmətin kollegiyasının üzvləri şəxsi fikirlərini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə çatdıra bilərlər.

5.10. Xidmətin kollegiyasının iclaslarına zəruri hallarda digər icra hakimiyyəti orqanlarının və təşkilatların rəhbərləri, habelə Naxçıvan Muxtar Respublikasında qeydiyyatdan keçən qeyri-hökumət təşkilatlarının nümayəndələri dəvət edilə bilər.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 iyul tarixli Fərmanı ilə təsdiq edilmişdir***

## Naxçıvan Muxtar Respublikasının Dövlət Nəqliyyat Xidmətinin STRUKTURU

Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidmətinin Aparatı (şöbələr və sektorlar)

# Yeni kənd təsərrüfatı texnikaları sərfəli şərtlərlə torpaq mülkiyyətçilərinə verilir

*İyulun 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov muxtar respublikaya alınıb gətirilmiş yeni texnikalara baxmış, "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin rayon bazalarının texnikalarla təminatı, kənd təsərrüfatı texnikalarının satışının davam etdirilməsi, yeni texnikalardan səmərəli istifadə olunması və digər məsələlər barədə tapşırıqlar vermişdir.*





Verilən tapşırıqların icrası diqqətdə saxlanılmışdır. İyulun 31-də "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətində muxtar respublikaya yeni gətirilmiş texnika və texnoloji avadanlıqlardan 9-u lizinq yolu ilə sahibkarlara satılmışdır.

Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Baş nazirinin müavini Elşad Əliyev çıxış edərək deyib ki, cari ilin iyun ayında muxtar respublikaya daha 79 yeni texnika və avadanlıq alınıb gətirilib. Alınan texnikalar dünyanın qabaqcıl ölkələrinin istehsalıdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına uyğun olaraq bu texnika və texnoloji avadanlıqların lizinq, nağd və köçürmə yolu ilə sahibkarlara satılması həyata keçirilir. Görülən bu tədbirlər muxtar respublikada aqrar sahənin, sahibkarlığın inkişafına göstərilən diqqət və qayğının daha bir ifadəsidir. Qeyd edilib ki, hazırda kənd təsərrüfatı texnikaları lizinqə verilərkən dəyərinin 20 faizi ödənildikdə dövlət büdcəsi hesabına onların ilkin dəyərinin 40 faizi həcmində güzəşt tətbiq edilir. Bu da aqrar sahənin, xüsusilə ailə təsərrüfatlarının inkişafına mühüm töhfə verir.

Sonra lizinq yolu ilə satılan yeni texnikaların sənədləri sahibkarlara təqdim olunub. Eyni zamanda "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin bütün rayon bazalarına da yeni texnika və texnoloji avadanlıqlar verilib.

Texnika təqdim olunan sahibkarlardan bir neçəsi ilə görüşüb söhbətləşdik.

Babək rayon Zeynəddin kənd sakini, torpaq mülkiyyətçisi Mətləb Həziyev bizimlə söhbətində dedi ki, uzun illərdir, təsərrüfatla məşğuldur. Bundan əvvəl sahələrdə köhnə kombaynla işləyib. Yeni kombaynların muxtar respublikaya gətirilməsi isə onu xeyli sevindirib: "Əsas dolanışığımız təsərrüfatla bağlıdır. Uzun illər taxıl əkib-becərməklə məşğul olmuşuq. İndi də bu işi davam etdiririk. Yəni çörəyimiz bundan çıxır. İndiyədək istifadə etdiyim kombayn artıq köhnəlmişdi. Yenisini almaq üçün "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin Babək rayon bazasına müraciət etdim. Sağ olsunlar, onlar da müraciətimi dəyərləndirdilər. Gördüyünüz kimi, bu gün artıq yeni kombayn gətirmək üçün buradayıq. Dövlətimizə minnətdaram ki, bu texnikalar bizə güzəştli şərtlərlə satılır. Bu isə bizim kimi torpaq mülkiyyətçilərinə həmin texnikalardan istifadə üçün geniş imkanlar açır. Çalışacağıq ki, dövlətimizin bizim üçün yaratdığı bu şəraitdən lazımınca yararlanaq".

Naxçıvan şəhər sakini Səid Əliyev də yeni texnika alanlar sırasında idi. Gənc olmasına baxmayaraq, artıq beş ildən çoxdur ki, fəaliyyətini kənd təsərrüfatı sahəsində qurub. Onun dediklərindən: "Kənd təsərrüfatına marağım bir neçə il bundan əvvəl başlayıb. Çünki zəhmətə qatlaşmaq, torpaqla ünsiyyətdə olmaq mənim üçün ayrı bir maraq kəsb edir. Yeni başlayanda texnikamız yox idi. Lakin dövlətin dəstəyi ilə bu çətinlikləri həll etdik. İndi həm torpaq icarəyə götürüb əkirik, eyni zamanda aldığımız texnika ilə digər təsərrüfatçıların sifarişlərini yerinə yetiririk. İşləyən üçün hər zaman iş var. Hazırda sahələrdə şum qaldırmanın zamanı çatıb. Yəni demək istədiyim odur ki, indiki dövrdə zəhmətkeş insan heç zaman ac qalmaz. Digər tərəfdən nəzərə alsaq ki, indi dövlətimiz tərəfindən kənd təsərrüfatı məhsulları istehsalçılarına hər cür yardımlar edilir, o zaman işə daha həvəslə girişirsən. Məsələn, bu gün aldığım texnika sahibkara güzəştli şərtlərlə satılır, eyni zamanda uzun müddətə kreditlə verilir. Bu baxımdan naxçıvanlı sahibkar üçün ən müasir kənd təsərrüfatı texnikasına sahib olmaq çox asandır. Biz torpaq mülkiyyətçiləri üçün belə bir şərait yaratdığına görə muxtar respublika rəhbərinə öz minnətdarlığımı bildirirəm".

Digər söhbətləşdiyimiz torpaq mülkiyyətçisi isə Şərur rayonunun Qorçulu kəndindən olan İdris Əliyev oldu. O dedi: "Bundan əvvəl də aqrolizinqin bu xidmətindən yararlanmışam. Bir neçə il bundan əvvəl aldığım traktorla yaxşı qazanc əldə etdim. Texnikanın borcunu tam ödədikdən sonra ikincisini almağı qərarlaşdırdım. Bunun üçün "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin Şərur rayon bazasına müraciət etdim. Artıq bu gün "New Holland" markalı yeni traktorun sahibiyəm. Bu il 6 hektar sahədə yonca, 6 hektar sahədə isə qarğıdalı əkmişəm. Yeni aldığım traktoru həm öz təsərrüfatımda işlədəcək, həm də digər təsərrüfat sahiblərinin işini görəcəyəm. Qısa müddətdə də texnikanın dəyərini tam ödəyəcəyəm. Yaradılan bu şəraitə görə torpaq mülkiyyətçiləri adından dövlətimizə minnətdarıq".

Bu gün muxtar respublikamızda kənd təsərrüfatının inkişafı üçün əhəmiyyətli addımlar atılır. Bir zamanlar münbit ərazilərinin böyük bir qismi əkilməyən, texnika sarıdan korluq çəkən Naxçıvan kəndlisi indi dünyanın ən müasir texnikaları ilə sahələrə çıxır. 2006-cı ildən bu günədək muxtar respublikamıza 2299 kənd təsərrüfatı texnikası və avadanlığı gətirilib. İndiyədək bu texnika və avadanlıqlardan 1801-i lizinq, 156-sı isə nağd və köçürmə yolu ilə sahibkarlara verilib. Ümumilikdə, muxtar respublika üzrə nağd, köçürmə və lizinq yolu ilə satılan texnika və avadanlıqların sayı 1957 olub. Hazırda "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin bazalarında müasir otbiçənlər, kombayn və traktorlardan kipvuranlara, yemdoğrayanlardan dərmanlamada istifadə olunan çiləyicilərədək onlarla adda texnika və avadanlıqlar mövcuddur. Elə bunun nəticəsidir ki, muxtar respublikada yaz və payız əkinləri də, taxıl biçini də vaxtında başa çatdırılır, bazarda məhsul bolluğu yaradılır.

Səbuhi HƏSƏNOV

# Aqrar sahənin inkişafında mühüm amil – taxılçılıq

## *Bu sahəyə yönəldilmiş dövlət proqramları Şahbuz rayonunda da uğurla icra olunur*



***Bu gün muxtar respublikamızın iqtisadiyyatı özünün mühüm inkişaf mərhələsini yaşayır. Həyata keçirilən irimiqyaslı islahatlar, imzalanan fərman və sərəncamlar, qəbul edilən qərarlar, reallaşan dövlət proqramları sayəsində Naxçıvanda iqtisadiyyatın artım göstəriciləri ildən-ilə yüksəlir.***

Son illər özəl sektorun inkişafının bazar iqtisadiyyatı prinsipləri əsasında qurulması, "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin istehsalçılara texniki xidməti daha da genişləndirmək istiqamətində uğurlu fəaliyyəti, kənd təsərrüfatı məhsulları istehsalçılarına sərf etdikləri yanacaq və motor yağlarına görə yardımların verilməsi, onların lazımi texnika və gübrələrlə vaxtında, güzəştli şərtlərlə təminatı, genişmiqyaslı kreditləşmənin və satış yarmarkalarının təşkili əhalinin keyfiyyətli yerli ərzaq məhsulları ilə etibarlı təminatına böyük stimul yaradıb.

Aqrar sahənin sürətlə inkişaf edən qollarından biri də taxılçılıqdır. Respublikamızın hər yerində olduğu kimi, muxtar respublikamızda da bu mühüm strateji ərzaq məhsulunun istehsalının artırılması ilə bağlı müəyyən tədbirlər həyata keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2008-ci il 17 sentyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə təminatına dair Dövlət Proqramı" aqrar sahənin inkişafı ilə bağlı imzalanmış mühüm dövlət sənədidir. Ərzaq məhsullarına olan tələbatın yerli məhsullar hesabına ödənilməsi istiqamətində həyata keçirilən tədbirləri yüksək qiymətləndirən ölkə başçısı cənab İlham Əliyev demişdir: ***"Naxçıvanda ərzaq təhlükəsizliyi məsələləri, demək olar ki, tam şəkildə öz həllini tapmışdır. Bu da böyük nailiyyətdir, böyük uğurdur".***

Proqramdan irəli gələn vəzifələrə Şahbuz rayonunda da böyük məsuliyyətlə yanaşılıb, sənəddə xüsusi diqqət yetirilən sahələrdən biri olan taxılçılığın inkişafı ilə bağlı tədbirlər həyata keçirilib. Statistik məlumatlara nəzər saldıqda burada taxıl əkini sahələrinin ildən-ilə genişləndirilməsi aydın görünür. 2000-ci ildə rayonda 584, 2005-ci ildə 600, 2010-cu ildə 1009, 2015-ci ildə 1022 hektar sahədə taxıl əkini keçirilmişdirsə, ötən il bu, 1353 hektar sahəni əhatə edib.

2017-ci ildə rayonun taxılçıları sahələrdən 4252 ton məhsul toplayıblar. Bunun da 3625 tonu buğda, 627 tonu isə arpa olub, orta məhsuldarlıq buğda üçün 26,8, arpa üçün isə 26,3 sentner təşkil edib. Rayonun Sələsüz, Badamlı, Türkeş, Mahmudoba və Nursu kəndlərinin fermerləri taxıl sahələrinin daha yaxşı becərilməsi, aqrotexniki qulluğun vaxtında aparılması nəticəsində illərdir ki, yüksək göstəriciyə nail olurlar.

Yuxarıdakı rəqəmlərə nəzər saldıqda onu da açıq-aydın görmək olur ki, insanlar ildən-ilə torpağa qırılmaz tellərlə bağlanır, əsas qida olan çörəyin bolluğuna çalışırlar. Bu zəhmətkeşliyin təməlində isə dövlətimizin əmək adamlarına qayğısı, onlara müxtəlif yardımların, kreditlərin verilməsi dayanır. Şahbuz rayonunun taxılçılıqla məşğul olan insanlarını bu qayğı daha da ruhlandırır. Sahibkarlara məhsul istehsalı üçün güzəştli əsaslarla mineral gübrə, yaz əkini üçün hər hektara 50, ümumilikdə, biçin üçün isə hər hektara 40 manat verilməsi, keyfiyyətli və məhsuldar buğda növlərindən toxum materialı kimi istifadə olunmasına şərait yaradılması taxılçılığa marağın artmasına səbəb olub.

Cari ildə də bu sahədə daha böyük uğurlara nail olmaq, rayon sakinlərini yerli və keyfiyyətli ərzaq məhsulu ilə təmin etmək məqsədilə 2018-ci ilin məhsulu üçün ötən ilin payızında və bu ilin yazında 1615 hektar taxıl əkini həyata keçirilib, bunun da 1408 hektarı buğda, 207 hektarı isə arpadır.

Muxtar respublikamızın hər yerində olduğu kimi, Şahbuz rayonunda da taxıl biçini uğurla həyata keçirilir. Hazırda rayonun Daylaqlı, Şahbuzkənd, Mahmudoba, Ayrınc kəndlərinin və Şahbuz şəhərinin taxıl zəmilərindəki sükutu burada elin sərvətini toplayan kombaynların uğultulu səsləri pozur. Əkilən sahələrin 1071 hektarında biçin keçirilib, 1617 ton məhsul istehsal edilib. Şahbuzlu taxılçılar biçini vaxtında aparmaq və məhsulu itkisiz toplamaq üçün hələ ötən aylardan ciddi hazırlıq işləri görüb, hazırda isə əlverişli hava şəraitindən səmərəli istifadə etməyə çalışırlar. Kənd əməkçiləri "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin rayon bazasında olan maşın və mexanizmlərdən lazımi qədər istifadə etmək imkanına malikdirlər. Buna görə də biçinin optimal müddətə başa çatdırılacağına əmindirlər.

Xalqımız qədim zamanlardan əkinçiliklə məşğul olub. Qədim dövrlərdən torpağa bağlanan azərbaycanlılar ailələri üçün lazım olan kənd təsərrüfatı məhsullarının əksəriyyətini istehsal edərək bu məhsullara olan tələbatlarını ödəyib, artıq qalanını isə bazara çıxararaq başqa ərzaq məhsulları ilə əvəzləməklə dolanışıqlarını təmin ediblər.

Hər kəsə məlumdur ki, sosial-iqtisadi sahənin inkişafında kənd təsərrüfatı mühüm amildir. Kənd təsərrüfatı dedikdə isə hər xalqın tale payına düşən münbit torpaqlar, onların əkilib-becərilməsi, həmin torpaqlardan səmərəli şəkildə istifadə olunması başa düşülür. Bu sahəni tərəqqiyə aparan ən başlıca sahə isə əsasən, əkinçilik, aqrar sahənin inkişafında mühüm amil isə taxılçılıqdır. Taxıl istehsalının artması bol çörək, digər kənd təsərrüfatı məhsullarının geniş istehsalı ölkədə onların hər birinə tələbatın ödənilməsi deməkdir. Kənd təsərrüfatı məhsulları sarıdan tam təmin olunan insan sosial sahənin digər sektorlarının da inkişafının qeydinə qalır, nəticədə isə bu sahə, ümumilikdə, inkişaf edir.

Respublikamızda, eləcə də bölgəmizdə yüksək iqtisadi inkişaf dinamikasının gələcəkdə də davam etməsinə istiqamətləndirilən siyasət ölkədə sahibkarlıq fəaliyyətinin daha da genişlənməsinə, qeyri-neft sektorunun sürətli inkişafına səbəb olub. Bu, dövlət başçısının da qeyd etdiyi kimi, iqtisadiyyatın neft amilindən asılılığına son qoyulması deməkdir.

Mətanət MƏMMƏDOVA

# Aztəminatlı ailələrin özünüməşğulluğu ilə bağlı tədbir keçirilib

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə



Dövlət Proqramı"nın icrasına uyğun olaraq ailə əməyinə əsaslanan fərdi təsərrüfatların yaradılmasına köməklik göstərilməsi, aztəminatlı ailələrin məşğulluğunun təmin edilməsi məqsədilə Naxçıvan Əlillərin Bərpa Mərkəzində tədbir keçirilib.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov muxtar respublikada aztəminatlı ailələrə göstərilən dövlət qayğısı, onların məşğulluğunun təmin olunması istiqamətində həyata keçirilən tədbirlər barədə danışıb.

Bildirilib ki, Şərur, Babək, Ordubad və Culfa rayonları üzrə, ümumilikdə, 10 aztəminatlı ailə müəyyənləşdirilib. Həmin ailələrin hər birinə yanında balası olan iribuynuzlu mal-qara verilib.

Vurğulanıb ki, cari ilin ilk 7 ayı ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən 66 aztəminatlı ailənin özünüməşğulluğunun təmin edilməsi üçün müvafiq köməklik göstərilib.

Daha sonra Babək rayon Cəhri kənd sakini Məleykə Məmmədova çıxış edərək göstərilən qayğıya görə minnətdarlığını bildirib, ailə təsərrüfatından səmərəli yararlanacaqlarını diqqətə çatdırıb.

Tədbirin sonunda aztəminatlı ailə təmsilçilərinə verilən mal-qara ilə bağlı sənədlər təqdim olunub.

*Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti*

*1 avqust Azərbaycan Əlifbası və Azərbaycan Dili Günüdür*

# Ana dili milli sərvətimizdir



***Ümummilli liderimiz Heydər Əliyevin 2001-ci il 9 avqust tarixli Fərmanı ilə hər il avqustun 1-i ölkəmizdə Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd olunur.***

Hər bir xalqı, milləti başqalarından fərqləndirən mühüm amillərdən biri və ən başlıcası onun dilidir. Azərbaycan dili də özünəməxsus zənginliyi ilə başqa dillərdən seçilir. "Dədə Qorqud" və "Koroğlu" dastanlarından gələn dilimiz həzin ana laylası ilə ruhumuza hopmuşdur. XVIII əsrdə Qafqaza səfər etmiş məşhur fransız yazıçısı və səyyahı Aleksandr Düma yazırdı: "Avropada fransız dili necə əhəmiyyətə malikdirsə, Qafqazda da Azərbaycan dili o cür əhəmiyyətə malikdir". Ulularımızın bizə miras qoyub getdikləri ana dilimiz İmadəddin Nəsimi, Şah İsmayıl Xətai, Molla Pənah Vaqif, Mirzə Fətəli Axundzadə, Cəlil Məmmədquluzadə, Səməd Vurğun, Üzeyir Hacıbəyli, Məmməd Araz, Hüseyn Cavid və digər görkəmli qələm sahiblərinin əsərlərində daha da zənginləşmiş, görkəmli sənətkarlarımız yaradıcılıqları ilə Azərbaycan dilinin inkişafına öz töhfələrini vermişlər.

Dil xalqın tarixini özündə yaşadan bir vasitədir. Azərbaycan xalqının müxtəlif dövrlərdə öz müstəqilliyi uğrunda apardığı mübarizə dil siyasətində də öz əksini tapıb. Məlumdur ki, bugünkü müstəqil Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin siyasi varisidir. Xalqımızın qədim dövlətçilik ənənələrini yaşadan Azərbaycan Xalq Cümhuriyyəti 1918-ci ildə qurulandan sonra dil məsələsi gündəmə gəldi və hökumətin imzaladığı ilk sənədlə Azərbaycan dili dövlət dili elan olundu.

Dilimizin hərtərəfli inkişafı, onun rəsmi dövlət dili statusu alması ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. ***"Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir",*** – deyən ümummilli liderimizin apardığı gərgin işin nəticəsi olaraq 1978-ci ildə Azərbaycan SSR Konstitusiyasının 73-cü maddəsi ilə Azərbaycan dili dövlət dili kimi təsbit edildi. Həmin dövrdə Azərbaycan dilinin elmi şəkildə öyrənilməsinə başlanmış, dilçi alimlərin fəaliyyəti üçün geniş imkanlar açılmış, elmi-tədqiqat materialları və kitablar nəşr olunmuşdur.

Dahi rəhbərin siyasi hakimiyyətə ikinci qayıdışından sonra da milli dəyərlərimizin ən qiymətlisi və bir millət kimi milli varlığımızın rəmzi olan Azərbaycan dilinin saflaşdırılması və inkişafı istiqamətində mühüm addımlar atılmışdır. Azərbaycan Respublikası Konstitusiyasının 21-ci maddəsində Azərbaycan dili dövlət dili kimi öz təsbitini tapmışdır. Ulu öndərin qəbul etdiyi "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 2001-ci il 18 iyun tarixli Fərman və "Azərbaycan Respublikasında Dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu mühüm dövlət sənədləridir. Ulu öndərin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərmanı ilə ölkəmizdə latın qrafikası tətbiq olunmuşdur.

Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev doğma dilimizə, milli adət-ənənələrimizə, qədim mədəniyyətimizə böyük həssaslıqla yanaşır. Ölkə başçısının "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004-cü il 12 yanvar tarixli Sərəncamı ana dilimizə dərin ehtiramın ifadəsidir. Dövlət başçısının sonrakı sərəncamları əsasında çap olunan 150 cildlik "Dünya ədəbiyyatı kitabxanası", 100 cildlik "Dünya uşaq ədəbiyyatı kitabxanası", 100 cildlik "Azərbaycan ədəbiyyatı kitabxanası" kitabxanaları latın qrafikalı ədəbiyyat fondunu zənginləşdirib.

Dil millətlər və xalqlar arasında dialoqun əsas vasitəsidir. Ölkə Prezidentinin 2013-cü il 9 aprel tarixli "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramının təsdiq edilməsi haqqında" Sərəncamı Azərbaycan dilinə göstərilən qayğının ifadəsi olmaqla yanaşı, həm də bu sahədə bir sıra tədbirlərin həyata keçirilməsinə şərait yaratmışdır. Dövlət Proqramında Azərbaycan dili və dilçiliyi ilə yanaşı, həm də tərcümə fəaliyyətinin, terminologiyanın inkişafına, internet resurslarının, elektron və interaktiv dərsliklərin yaradılması məsələləri öz əksini tapmış, televiziya və radiolarda Azərbaycan dilinin norma və qaydalarının qorunması məqsədilə bədii şuralar yaradılmışdır. Ölkə başçısının "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" 2018-ci il 17 iyul tarixli Sərəncamı isə Azərbaycan dilinin elektron məkanda daha geniş istifadə məqsədini daşıyır.

Bu gün Naxçıvan Muxtar Respublikasında da dövlət dil siyasəti uğurla həyata keçirilir. Naxçıvan şəhərində "Ana dili" abidəsi ucaldılmışdır. Son illər muxtar respublikada dərc olunmuş "Naxçıvan Ensiklopediyası", "Naxçıvan Abidələri Ensiklopediyası", 3 cilddə "Naxçıvan folkloru antologiyası", 3 cildlik "Naxçıvan tarixi" kitabı, xeyli sayda digər nəşrlər tariximiz və mədəniyyətimizlə yanaşı, dilimizin də inkişafına mühüm töhfədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Oxunması zəruri olan kitablar haqqında" 2017-ci il 28 avqust tarixli Sərəncamı gənclərdə mütaliə mədəniyyətini formalaşdırmaqla yanaşı, onlarda ana dilinə sevgi və hörmət hisslərini də artırır.

Muxtar respublikada iaşə obyektlərinə, mağazalara milli adların verilməsi, reklam lövhələrinin dilimizin qayda-qanunlarına uyğun yazılması işi də daim diqqətdə saxlanılır. Dünyanın tanınmış yazıçılarının əsərlərinin Azərbaycan dilinə tərcümə edilməsi, televiziya və radiolarda verilişlərin yayımı, filmlərin nümayişi zamanı ana dilimizin bütün xüsusiyyətlərinə riayət olunması da dilimizin qorunması sahəsində həyata keçirilən mühüm tədbirlərdir.

Ana dilimizin hərtərəfli inkişafı, dövlət dilinə çevrilməsi, diplomatiya aləminə yol açması, dünyanın ən mötəbər tədbirlərində eşidilməsi qürurvericidir. Çünki dil təkcə ünsiyyət vasitəsi deyil, həm də xalqın tarixi, ədəbiyyatı, mədəniyyətidir. Hansı ölkədə yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı öz ana dilini, dinini, milli adət və ənənələrini unutmamalı, onları təbliğ etməlidir. Ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi: ***"Dil ədəbiyyatla, mədəniyyətlə, mənəviyyatla bağlıdır. Bunlarsız isə vətənpərvərlik formulu yoxdur".***

**Nuray ƏLİYEVA**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*
*AMEA Naxçıvan Bölməsi*

# Kollegiya iclası keçirilib



Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səkkizinci sessiyasında qarşıya qoyulan vəzifələrin müzakirəsi ilə bağlı kollegiya iclası keçirilib. İclasda səhiyyə naziri Niyazi Novruzov çıxış edərək bildirib ki, hesabat dövründə səhiyyə sisteminin yenidən qurulması və müasir standartlara uyğunlaşdırılması, ixtisaslı kadrların hazırlanması, yoluxucu xəstəliklərin profilaktikası diqqət mərkəzində saxlanılıb. Kadr hazırlığı və səhiyyə obyektlərinin müasir avadanlıqlarla təchiz olunması sahəsində tədbirlər davamlı xarakter alıb.

Qeyd olunub ki, müasir tibbi avadanlıqlarla təchiz olunmuş tibb ocaqlarının istifadəyə verilməsi muxtar respublikanın səhiyyə sistemində reallaşdırılan mühüm islahatlardandır. Bunun nəticəsidir ki, cari ilin ötən dövründə Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası əsaslı təmir və yenidənqurmadan sonra yeni avadanlıqlarla təchiz edilərək, Şərur rayon Ərəbyengicə kənd həkim ambulatoriyası, Culfa rayon Dizə kənd feldşer-mama məntəqəsi tikilərək istifadəyə verilib. Hazırda Naxçıvan Tibb Kolleci, Şərur Rayon Uşaq Xəstəxanası, rayonun İbadulla, Kərimbəyli, Culfa rayonunun Qazançı, Babək rayonunun Aşağı Buzqov, Ordubad rayonunun Dəstə kənd həkim ambulatoriyalarında yenidənqurma və tikinti işləri davam etdirilir.

Səhiyyə naziri vurğulayıb ki, səhiyyə xidmətlərinin səviyyəsini müasir tələblərə çatdırmaq, keyfiyyətini daha da yaxşılaşdırmaq məqsədilə cari ildən etibarən Sədərək rayonunda icbari tibbi sığortanın tətbiqinə başlanılıb. Tibbi sığortanın yüksək standartlar səviyyəsində fəaliyyət göstərməsi məqsədilə Ali Məclis Sədrinin müvafiq sərəncamları ilə Sədərək Rayon Mərkəzi Xəstəxanası, Naxçıvan Diaqnostika-Müalicə Mərkəzi və Naxçıvan Muxtar Respublikası Stomatoloji Mərkəzi publik hüquqi şəxsə çevrilib. Gələcəkdə icbari tibbi sığortanın digər rayonlarda da tətbiqi səhiyyəni yeni inkişaf mərhələsinə çıxaracaqdır.

Nazir bildirib ki, müalicə-profilaktika işinin təşkili sahəsində görülən tədbirlər, tibbi xidmətin keyfiyyətinin və əhatəliliyinin artırılması demoqrafik vəziyyətə öz müsbət təsirini göstərib. Belə ki, muxtar respublikada 2018-ci ilin 6 ayında 2445 uşaq doğulub, təbii artım 1463 nəfər olub.

Niyazi Novruzov hesabat dövründə tibb işçilərinin ixtisas səviyyəsini artırmaq məqsədilə çoxsaylı seminar və konfranslar keçirildiyini, Bakı şəhərinin, Türkiyə Respublikasının müxtəlif klinika və xəstəxanalarına təkmilləşdirmə kurslarına göndərildiyini, həkim və orta tibb işçilərinin sertifikasiya işinin davam etdirildiyini bildirərək qeyd edib ki, ötən yarımildə müxtəlif klinikalardan yüksəkixtisaslı həkimlər və kollektivlər muxtar respublikaya dəvət olunub və yerli həkimlərlə birgə fəaliyyət göstərərək xeyli sayda əməliyyatlar aparıblar.

Sonra çıxışlar dinlənilib.

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti*

***AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Təsviri və dekorativ-tətbiqi sənətlər şöbəsinin müdiri Fizzə Quliyevanın bu yaxınlarda "Əcəmi" nəşriyyatında nəfis tərtibatla çapdan çıxmış "Şamil Qazıyevin həyat və yaradıcılığı" monoqrafiyasında görkəmli Azərbaycan rəssamının mənalı ömrü, bugünkü yaradıcı nəslə örnək ola biləcək sənət yolu tədqiq olunub.***

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Görkəmli rəssam Şamil Qazıyevin 110 illik yubileyinin keçirilməsi haqqında" 2018-ci il 1 fevral tarixli Sərəncamına əsasən görkəmli rəssamın yubileyi qədim diyarımızda geniş şəkildə qeyd olunur. Yeni nəşr də tanınmış sənətkarın yubileyinə töhfə, adıçəkilən sərəncamın icrası istiqamətində atılan əhəmiyyətli addımlardandır.***

*Yeni nəşrlər*

# Dəyərli tədqiqat əsəri




Tədqiqat əsərindən məlum olur ki, Şamil Qazıyev Azərbaycanın qədim şəhərlərindən biri olan İrəvanda, ziyalı ailəsində dünyaya göz açıb, lakin o dövrdə ermənilərin İrəvanda xalqımıza qarşı törətdiyi soyqırımı və deportasiya siyasətinin nəticəsində ailəsi ilə birlikdə Naxçıvana köçmək məcburiyyətində qalıb. Naxçıvanın füsunkar təbiəti, qayğıkeş insanları erməni zülmündən qurtulan ailənin, o cümlədən yeniyetmə Şamil Qazıyevin həyatında silinməz iz buraxıb, onun gələcək yaradıcılığına təsirsiz ötüşməyib.

Hər bir insanın həyat yolunun formalaşmasında onu əhatə edən insanların təsiri böyükdür. Belə demək mümkündürsə, insanın yaşadığı mühit onun gələcək həyat yolunun müəyyənləşdirilməsində mühüm rol oynayır. Şamil Qazıyevin də ziyalı ailəsində böyüməsi, ziyalı mühiti ilə əhatə olunması onun həyatını istiqamətləndirib, ixtisas seçiminə təsir edib. Monoqrafiyada müəllif tanınmış rəssamın həyatı və yaradıcılığı ilə bağlı bəzi məqamlara aydınlıq gətirib, Bəhruz Kəngərli və Şamil Qazıyevin yaradıcılığındakı bənzərliyin görkəmli sənətkarların yaşadığı dövr və mühitlə də sıx bağlı olduğunu qeyd edib.

Yeni nəşrdə Şamil Qazıyevin çoxşaxəli fəaliyyəti və rəngarəng yaradıcılığı sevilərək vəsf edilib. Onun Bakı Rəssamlıq Məktəbini bitirdikdən sonra Naxçıvan Pedaqoji Texnikumunda müəllimlik etməsi, daha sonra görkəmli rəssam Əzim Əzimzadənin təklifi ilə Bakıda "Kommunist" qəzetinin redaksiyasında işə düzəlməsi monoqrafiyada ətraflı şəkildə işıqlandırılıb.

Rəssamın həyatını hərtərəfli araşdıran tədqiqatçı Naxçıvanın teatr mühitinin də onun yaradıcılığında özünəməxsus rol oynamasından da əhatəli şəkildə bəhs edib. Qeyd olunub ki, Naxçıvan Dövlət Dram Teatrında dövrünün görkəmli sənətkarları olan Sidqi Ruhulla, Səməd Mövləvi, Məcid Zeynalov, İbrahim Həmzəyev ilə birlikdə işləməsinin onun sənətkar kimi formalaşmasına böyük təsiri olub.

Tədqiqat əsərinin üstün cəhətlərindən biri arxiv sənədlərinə və tədqiqatçıların fikirlərinə əsaslanaraq rəssamın tərtibat verdiyi tamaşalarla bağlı aparılan araşdırmalar və əldə olunan yeni elmi faktlardır.

Şamil Qazıyevin yaradıcılığında "Köhnə Naxçıvan" silsiləsinə daxil edilmiş əsərləri xüsusilə diqqətəlayiqdir. Tədqiqatçı rəssamın yaradıcılığında Naxçıvanın əsas yer tutmasının səbəbini bu diyarın füsunkar təbiəti, qayğıkeş insanları və ziyalı mühiti ilə bağlamaqda haqlıdır. "Köhnə Naxçıvan" silsiləsinə daxil olan əsərlərdə Naxçıvanın təbiəti, tarixi abidələri, qədim yurd yerləri, xalqımızın məişəti öz əksini tapıb. Fizzə Quliyeva yazır ki, rəssam "Köhnə Naxçıvan" silsiləsində süjetli tablo, məişət, mənzərə, natürmort, portret və digər janrlardan istifadə edib. Yəqin elə buna görədir ki, rəssamın realist üslubda, müxtəlif janrlarda yaratdığı rəngkarlıq əsərləri tariximizin bir parçasını özündə yaşatmaqdadır. Onun "Qaçqınlar" əsərində Qərbi Azərbaycandan deportasiya olunmuş həmvətənlərimizin acı taleyi məharətlə təsvir edilib. Tablonun təsirli təəssürat yaratmasının səbəblərindən biri də rəssamın ailəsi ilə birlikdə özünün də bu acı taleyi yaşamasıdır.

"Köhnə Naxçıvan" silsiləsində əsas yer tutan əsərlərin bir qrupu xalqımızın etnoqrafiyasını detalları ilə əks etdirən süjetli tablolardır. Bu tablolar həm rəngkarlıq əsərləri, həm də xalqımızın etnoqrafik ənənələrini özündə əks etdirən əyani vasitə kimi qiymətlidir. Tariximizi nə qədər yaxşı öyrənsək də, ulu əcdadlarımızın həyat tərzini tam və aydın şəkildə təsəvvür etmək o qədər də asan deyildir. Məhz bu baxımdan Şamil Qazıyevin yaratdığı tablolar dəyərli sənət əsərləri olmaqla bərabər, həm də əvəzsiz tarixi mənbədir. Rəssamın yaratdığı "Örtülü bazar" tablosu həm etnoqrafik, həm də tarixilik baxımından əhəmiyyətlidir. Bazarda sıra ilə düzülən baqqal dükanları, milli geyimdə təsvir edilən insanlar həmin dövrü bütün reallıqları ilə əks etdirir. Fizzə Quliyeva rəssamın bu əsərlərini qruplaşdıraraq tədqiq edib, onların bədii və tarixi dəyərini qiymətləndirib.

Yeni nəşrdə bütün mənalı həyatını rəssamlıq sənətinə həsr edən Şamil Qazıyevin bir çox uğurlara imza atmasından da bəhs edilir. Onun yaradıcılığının yüksək qiymətləndirilməsi, 1940-cı ildə SSRİ Rəssamlar İttifaqının üzvü seçilməsi, 1944-cü ildə "Naxçıvan MSSR Əməkdar incəsənət xadimi" fəxri adı ilə ilk təltif olunan sənət xadimi olması barədə məlumat verilir.

Tədqiqat əsərində həm də Naxçıvan Muxtar Respublikasında peşəkar təsviri sənət ustalarının formalaşması üçün yaradılan şəraitdən bəhs edilib. Müəllif yazır ki, vaxtilə Bəhruz Kəngərli, Şamil Qazıyev və digər sənətkarların arzuladığı təsviri sənət məktəbləri hazırda dövlətimizin qayğısı ilə reallığa çevrilib, ali təhsil ocaqlarında müvafiq ixtisaslar yaradılıb.

Əsərdə görkəmli sənətkarın həyatı və yaradıcılığı hərtərəfli tədqiq edilib, onun bədii irsi, bu irsin bədii sənətimizin inkişafındakı yeri və tariximiz üçün əhəmiyyəti dəyərləndirilib. Belə hesab edirik ki, bu monoqrafik əsər həm elmi tədqiqatçılar, həm də rəssamın irsinə maraq göstərən geniş oxucu kütləsi üçün faydalı olacaqdır.

**Vəli BAXŞƏLİYEV**
*AMEA-nın müxbir üzvü*

Yurdumuzun nemətləri

## Batrınc dadlı və faydalı bitkidir

***Naxçıvan torpağı həmişə öz yüksəkkeyfiyyətli yerli tərəvəz məhsulları ilə tanınıb. Təzə meyvə-tərəvəzə üstünlük verən naxçıvanlıların zəngin yerli mətbəxə məxsus yeməklərin hazırlanmasında istifadə etdikləri müxtəlif tərəvəzlər sonda dadı və ləzzəti ilə seçilən xörəklərin ərsəyə gəlməsini təmin edir.***



Muxtar respublikanın müxtəlif bölgələrində yetişdirilən meyvə-tərəvəzlər yerli tələbatı ödəməklə, orqanizm üçün hədsiz faydalılığı ilə yanaşı, həm də ərzaq məhsulları idxalının qarşısını alır.

İlin bu vaxtı Naxçıvan bazarlarında batrınc bitkisinə tez-tez rast gəlirik. Bu bitkini, bəlkə də, muxtar respublikadan kənarda tanıyan az adam tapılar. Süfrələrin bəzəyi olan, öz görünüşü və dadı ilə digər tərəvəzlərdən fərqlənən batrıncın faydalı xüsusiyyətlərini saymaqla bitməz. Bu bitki haqqında geniş məlumat almaq üçün Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri Əsgər Həsənovla həmsöhbət olduq.

Əsgər müəllim qeyd etdi ki, muxtar respublika ərazisində əkilib-becərilən səbzə-tərəvəz bitkiləri içərisində batrıncın özünəməxsus yeri və əhəmiyyəti var. Nuh yurdu Naxçıvanda bu bitki çox qədim zamanlardan əkilib-becərilib və mədəni əkinçilik sistemində özünün xüsusi çəkisi olub. Eyni zamanda digər səbzə-tərəvəz bitkiləri, o cümlədən nanə, cəfəri, şüyüd, razyana, reyhan, tərxun, kəvər yerli bazarın təminatında yer tutub, faydasına görə bu bitkilərin əkininə üstünlük verilib.

Mütəxəssislərin apardıqları təhlillərin nəticəsi göstərir ki, Naxçıvan diyarında VI-XII əsrlərdən bəri istifadə edilən batrınc həm insanların gündəlik qida rasionuna daxil edilib, həm də xalq təbabətində geniş istifadə olunub. Ordubad rayonunda batrınc bitkisindən alınmış cövhər qan-damar, böyrək və öd yolları xəstəliklərinin müalicəsində bu gün də müalicəvi təsirə malik vasitə hesab edilir. Çoxillik bitki olan batrınc torpağın strukturundan asılı olaraq şorakət və şoran ərazilərdən başqa, bütün növ torpaq sahələrində əkilib-becərilir. Digər səbzə-tərəvəz bitkiləri ilə müqayisədə məhsuldarlığı daha çoxdur. Belə ki, batrıncın hər hektarından 70 sentnerdən artıq məhsul götürmək mümkündür. Muxtar respublika şəraitində həm vegetativ, həm də generativ üsullarla artırıla bilən bu bitki Naxçıvanın bütün bölgələrində əkilir.

Müsahibim bildirdi ki, batrıncın Şərur, Şahbuz, Babək, Ordubad və Kəngərli rayonlarında məhsuldarlığı çox olmaqla yanaşı, daha ləziz növlərinə də rast gəlinir. Bu bitkidən həm də muxtar respublikamızın kulinariyasında müxtəlif növ xörəklərin, o cümlədən bozpört, basdırma, kabab, eyni zamanda un məmulatlarının hazırlanmasında, sıyıq yeməklərində geniş istifadə olunur.

Batrınc bitkisi haqqında daha geniş məlumat almaq üçün bazara da yollandıq. Tərəvəz piştaxtalarının üstündə ilk andan diqqəti cəlb edən bitkilərdən biri də elə batrınc oldu. Bu bitkini münasib qiymətə satan Xalid dayı onun çox faydalı olduğunu bildirdi. Göyərtiləri Ordubad rayonunun Dəstə kəndindən gətirdiyini deyən satıcı rayonun müxtəlif kəndlərində əkilib-becərilən batrıncın faydalarından danışdı: – Batrıncı nəinki göyərti kimi istifadə edir, hətta onun çayını dəmləyib içirik. Bu həm qan-damar sistemini tənzimləyir, həm də bədənin bir çox orqanlarının funksiyasını bərpa edir. Rayonda müxtəlif yeməklərin yanında süfrəyə gətirilən bitkini yayda yığıb qurutmaqla qışa da saxlamaq olur. Batrıncı bərəkətli göyərti hesab edən satıcı onu yazın əvvəllərindən əkdiyini, ta qışa qədər istifadə etdiklərini dedi.

Satıcı onu da bildirdi ki, bu bitkini ölkəmizin digər bölgələrində tapmaq çətindir. Məhz buna görə də Bakıda yaşayan tanışlarımız burada daddıqları batrıncdan həmişə sifariş edirlər.

Muxtar respublikamızın məhsuldar torpaqlarında bitən batrıncı bir yeyən bir də dadmaq istəyir. Odur ki, torpaqlarımızdan məhsuldarlıq, süfrələrimizdən belə faydalı bitkilər əskik olmasın!

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

***Qızmar yay günlərində insanların günəş eynəklərinə olan tələbatı daha da artır. Bəziləri bu eynəkləri göz sağlamlığının qeydinə qalmaq üçün alsa da, çoxları ondan dəb xatirinə, aksesuar kimi istifadə edir. Elə buna görədir ki, insanlar optika mağazalarında satılanları deyil, aksesuar mağazalarında sertifikatı olmayan eynəkləri əldə etməyə üstünlük verirlər. Bunun digər səbəbi isə aksesuar mağazalarında optika mağazalarına nisbətən qiymətin daha münasib olmasıdır. Bəs alarkən keyfiyyətinə deyil, qiymətinə diqqət etdiyimiz eynəklər gözümüzdə hansı fəsadlara yol aça bilər? Ümumiyyətlə, keyfiyyətli günəş eynəyini əldə etmək üçün nələrə diqqət etməliyik? Suallarımızı Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin həkim-oftalmoloqu Məhəmməd Vəliyev cavablandırdı.***

Həkim məsləhəti

## Gözlərimizi saxta eynəklərdən qoruyaq



O bildirdi ki, yaz-yay aylarında gözlərimizi ultrabənövşəyi şüalardan qoruya bilmək üçün günəş eynəklərindən istifadə etmək çox vacibdir. Lakin bəzən insanlar buna laqeyd olurlar. Həkim günəş eynəklərinə olan ehtiyacın artdığı dövrdə bu məsələyə həssas yanaşmanın vacib olduğunu bildirərək dedi ki, gözlərin sağlam qalması üçün eynək seçərkən çox diqqətli olmaq lazımdır. Əks halda gözlərdə katarakt, sarı nöqtə, göz ətrafındakı dəridə xərçəng kimi müxtəlif xəstəliklərlə qarşılaşa bilərik. Unutmaq olmaz ki, günəş eynəkləri aksesuar deyil, gözün sağlamlığını qorumaq üçün bir vasitədir.

Oftalmoloq qeyd etdi ki, günəş eynəkləri sifət quruluşuna uyğun olmalı, qulaqlara və buruna təzyiq etməməli və ultrabənövşəyi şüaları keçirməməlidir. Eynəyin keyfiyyətini yoxlamaq üçün onu taxıb şaquli bir xətt üzrə baxmaq lazımdır. Bu vəziyyətdə eynəyi yuxarı-aşağı və sağa-sola hərəkət etdirdiyinizdə baxdığınız şaquli xətdə oynama və ya qırılmalar yaranırsa, eynək keyfiyyətsiz eynəkdir. Bəzən insanların çoxu eynək seçərkən tünd rənglərin daha çox keyfiyyətli olduğunu və ultrabənövşəyi şüaları buraxmadığını düşünür. Lakin bu səhv fikirdir. Şüşə rəngi ilə ultrabənövşəyi şüalardan qorunma arasında heç bir əlaqə yoxdur. Hər tünd rəng şüadan qorumur.

Həmsöhbətimiz bildirdi ki, günəş eynəkləri gözlərimizi günəş şüalarından, radiasiyadan, göz qapağı dərisini dəyə biləcək zərərlərdən qoruyur. Eynəklər gözdə ət və piy yaranmasının da qarşısını alır. Katarakt və göz bəbəyində yaranan ləkələrin olmaması üçün də doğru eynəklərdən istifadə etmək şərtdir.

Günəş eynəklərinin gözə mənfi təsirləri haqqında əksər insanlarda yanlış fikir formalaşıb. Əslində isə optik eynəklərdən fərqli olaraq, günəş eynəkləri yalnız günəş şüasını orqanizmə miqdarından artıq keçirdiyi zaman mənfi təsirli olur. Əgər istifadə etdiyiniz eynək günəş şüalarının təsirinin qarşısını almaq qabiliyyətində deyilsə, bu zaman gözə düşən şüaların miqdarı həddən artıq ola bilər. Bu isə gözdə qamaşma, qaşınma, sulanma, yanma və günəş şüalarının mənfi təsirindən yaranan digər xəstəliklərə səbəb ola bilər. Ona görə günəş eynəkləri də optik eynəklər kimi həkim məsləhəti ilə alınmalıdır. Çünki yalnız göz həkimləri eynəyin şüa sındırma dərəcəsi və digər parametrlərinin insanın gözünə uyğun olduğunu təyin edə bilər.

Müsahibimiz onu da qeyd etdi ki, günəş eynəkləri alarkən onların keyfiyyət sənədində 99 faiz ultrabənövşəyi şüalardan mühafizəsi və ya 400 nanometrdən aşağı şüaları keçirmədiyi barədə məlumatın olmasına diqqət yetirilməlidir. Buna görə də təsadüfi yerlərdə satılan eynəkləri almaq düzgün deyil. Həkim bildirdi ki, günəş şüalarından qorunmaq üçün eynəkləri optika mağazalarından və həkim nəzarəti olan yerlərdən almaq məsləhətdir. Yalnız bu halda aldığımız məhsulun keyfiyyətinə etibar edə bilərik.

Gözlər insan üçün həyati əhəmiyyətli mühüm orqanlardan biridir. Dəyərini yalnız nurunu itirdikdən sonra bildiyimiz gözlərimizi hər zaman qorumalı, onları gözəllik xatirinə saxta eynəklərə qurban verməməliyik.

✍ **Gülcamal TAHİROVA**

## Şahmatçılarımız Türkiyədə keçirilən festivalda uğurla çıxış ediblər

***Türkiyə Respublikasının Ankara şəhərində "Ankara Çubuk IV" Beynəlxalq Şahmat Festivalı keçirilib.***

806 şahmatçının iştirak etdiyi festivalda Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının zəka sahibləri də yarışıblar. Belə ki, ağ-qara taxta üzərində mübarizə aparmaq üçün qonşu ölkəyə 8 şahmatçımız yollanıb.

Festivalın reqlamentinə əsasən 13 ölkənin idmançısı "A" və "B" qruplarında, 8, 10 və 14 yaş qruplarında qalibi müəyyənləşdirməyə çalışıblar.

Ən uğurlu nəticəni "B" qrupunda mübarizə aparan Tural Zeynalov (1656) əldə edib. Belə ki, 7,5 xal toplayan zəka sahibimiz bu qrupda iştirak edən 294 şahmatçı arasında ikinci olub.

14 yaşlı şahmatçıların mübarizəsində isə Nəsrin Babayeva (1392) qızlar arasında üçüncü yeri əldə edib. Qeyd edək ki, bu qrupda 82 şahmatçı ağqara taxtada qalibi müəyyənləşdirməyə çalışıb.

"A" qrupunda iştirak edən FİDE ustamız Pərviz Qasımov (2313) 6,5 xalla festivalı 10-cu pillədə başa vurub və mükafatçılar sırasına düşüb. Bu qrupda 127 zəka sahibi mübarizə aparıb.

Sonda qalib idmançılarımız diplom, medal və kubokla mükafatlandırılıblar.

✍ **Ceyhun MƏMMƏDOV**

## Su... Onun qədir-qiymətini hamılıqla bilməliyik



Son illərdə muxtar respublikada insanlara göstərilən ən böyük xidmətlərdən biri də suvarma və içməli suya olan tələbatın tam ödənilməsi istiqamətində atılan mütərəqqi addımlardır. Görülən irimiqyaslı işlərin nəticəsidir ki, blokada şəraitində olan muxtar respublikanın hər bir bölgəsi içməli su və suvarma suyu ilə tam təmin olunub. Ancaq gəlin görək, yaradılan bu imkanlardan qədərincə istifadə edirikmi? "Su haqqı", – deyib paklığına and içdiyimiz təbii sərvətə necə qənaət edirik? Axı su yer üzünün tükənən sərvətlərindəndir, əgər biz qənaət etməsək, gələcək nəsillər bu israfçılığın acı fəsadlarını yaşayacaqlar. Və çox güman ki, buna görə bizə, "sağ olun", deyən tapılmayacaq.

Ötən günlərdə şahidi olduğum bir mənzərə məni bu mövzuya müraciət etməyə vadar etdi. Naxçıvan şəhərinin Atabəylər məhəlləsindəki binanın həyətində qurulmuş su kranının açıq buraxılması, üstəlik, bu yerdə kanalizasiya xəttinin yarpaqlarla tutulması ətrafda su gölməçələrinin yaranmasına səbəb olmuşdu. Yaxınlıqdakı yaşlı bir adamın, nəhayət, bu hadisəyə reaksiya verib kranı bağlaması, təbii ki, gölməçələrin daha da böyüməsinin qarşısını aldı. Yaxınlaşıb onunla həmsöhbət oldum. Öyrəndim ki, o, məhəllə sakini, yaşı yetmişi ötmüş Əli Tarverdiyevdir. Onunla söhbət əsnasında dedi ki, Atabəylər məhəlləsinin vaxtilə suya böyük ehtiyacı olub. Sovetlər dövründə, elə müstəqilliyimizin ilk illərində də su sarıdan çox əziyyət çəkmişik. Bidonlarla çeşmələrdən su daşıdığımız da az olmayıb. Belə olan şəraitdə təmizlikdən də söhbət gedə bilməzdi. Təbii ki, bundan ən çox qadınlar əziyyət çəkirdilər. Mənə qəribə gələn odur ki, həmin şəraitdə böyüyən orta və yaşlı nəsil də suya qənaət məsələsində bu gün bəzən biganəliyə yol verir, çəkilən əziyyətləri yaddan çıxarır. İndi həmyerlilərimizin çoxu xarici ölkələrə gedib-gəlir, danışırlar ki, bu ölkələrin şəhərlərində küçədə axan bir çeşməyə rast gələ bilməzsən, suyun hər litri müəyyən məbləğə satılır. Bizdə isə hər bir məhəllədə yoldan keçənlərin, sakinlərin istifadəsi üçün su kranları qoyulub. Bu, biz insanlara göstərilən qayğının nümunəsidir. Ancaq, təəssüflər olsun ki, biz suyun qədrini lazımınca bilmirik. Düşünürəm ki, bu məsələyə hər bir sakin həssas yanaşmalı, xoşagəlməz hallara son qoyulmalıdır.

Naxçıvan şəhərinin "Şahab" məhəlləsində yaşayan 60 yaşlı təqaüdçü-müəllim Məlahət Axundova deyir ki, əvvəllər hər həyətə su çəkdirmək mümkünsüz idi. Tək-tük həyətlərdə su müəyyən olunmuş qrafiklə gələrdi. Təbii ki, içməli su qıtlığı olduğundan suyun gəlmə saatını qonşular ev sahibindən daha dəqiq bilərdilər. Paradoksal hal ondan ibarət idi ki, qonşu qadınlar ev sahibinin xəbəri olmadan su aparmağa gələr, bir çox hallarda həyətlərdə növbə üstündə dava-dalaş düşərdi. Ancaq indi hər mətbəxdə içməli su axır. Məişət işlərində, eləcə də təmizlikdə büllur kimi saf sudan istifadə edilir. Bu, dövlətimizin biz sakinlərə yaratdığı şəraitin bəhrəsidir. Təqaüdçü olduğumdan şəxsi həyəti olan rəfiqələrimin evinə yolum tez-tez düşür. Bəzən şahidi olduğum israfçılıq halları mənə su sarıdan qıtlıq çəkdiyim o illəri xatırladır. Bu gün isə təəssüf ki, bəzi həyət evlərində ağaclar içməli su ilə suvarılır. Bu isə məni çox narahat edir.

... İndi dünyanın bir çox ölkələrində su qızıla bərabər tutulur, milyonlarla vəsait xərclənərək yerin yeddi qatından su çıxarılır. Afrikanın bir çox ölkələri üçün su, sözün tam mənasında, həyat deməkdir. Biz bunun televiziya ekranlarından, qəzetlərdən, demək olar ki, hər gün şahidi oluruq. Deməli, üzərində yaşadığımız torpağın, daşın bizə əvəzsiz hədiyyəsinin qədrini, qiymətini bilməliyik.

Makedoniyalı İsgəndərin ömrü boyu dirilik – abi-həyat suyunu axtardığı söylənilir. Bu, su haqda minlərlə əfsanədən biridir. Əsl həqiqət isə budur ki, təmiz, pak su sağlam həyatın, uzun ömrün təminatıdır. Başqa sözlə, bu gün dirilik suyu bizim həyətlərimizdə, evlərimizdədir. Bizə isə bu suyun qədir-qiymətini bilmək, təbiətin əvəzsiz nemətindən qənaətlə istifadə etmək qalır.

✍ **Nail ƏSGƏROV**

***İtmişdir***

Babək rayonunun Zeynəddin kənd sakini Nadirov Qasım Məhəmməd oğlunun adına olan JN-362 inventar nömrəli 10308038 kodlu torpağın mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Mətanət Məmmədova

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1490. Sifariş № 550